**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.191

**NURLAN MƏMMƏDOV***

# RELYEF HEYKƏLTƏRAŞLIĞININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

*Relyef heykəltəraşlığı qədim dövrlərdən bəri inkişaf edən və əsasən düz səthlərdə həyata keçirilən bir sənət növüdür. Bu janrın əsas xüsusiyyətləri arasında qorelyef, barelyef və kontur relyef kimi müxtəlif üslublar yer alır. Relyef memarlıqla sıx əlaqəli olub bina və digər iri obyektlərin bəzədilməsində geniş istifadə olunur. Relyef heykəltəraşlığının tarixi, ilk dövrlərdə mağara divarlarında və daş lövhələrdəki sadə və sxematik təsvirlərlə başlayıb. Zaman keçdikcə, rəsmlər və təsvirlər daha mürəkkəb və detalizə olunur. Bu sənət növü qədim mədəniyyətlərdə, xüsusilə Misir, Yunan və Roma incəsənətində mühüm yer tutub və bəzən gücü və dini mövzuları təcəssüm etdirib. Relyefin yaradılması prosesində işıq-kölgə oyunları və perspektivdən istifadə ilə həcmin və dərinliyin illüziya yaradılması önəmlidir. Bu sənət növü, həmçinin abidələr, sarkofaqlar və qəbir daşları kimi böyük ölçülü sənət əsərlərində də əksini tapıb. Relyef heykəltəraşlığı, tarixi və mədəniyyətə dair əhəmiyyətli məlumatlar verərək, zamanla müxtəlif dövrlərdə inkişaf etmiş və yeni üslubların yaranmasına səbəb olmuşdur. XX əsrdə, bu sənət növü, estetik və texniki təcrübələrlə zənginləşmiş, həmçinin memarlıq və ümumi sənət baxımından vacib bir mövzuya çevrilmişdir. Relyef heykəltəraşlığı tarix boyu insanın həyatını, mədəniyyətini və inkişafını əks etdirərək, bu günə qədər öz əhəmiyyətini qoruyub saxlayır.*

***Açar sözlər:*** *Relyef, plastika, heykəl, sənət, obraz, qabartma.*

## Giriş

Heykəltəraşlıq bir neçə janrda inkişaf etdiyi kimi, heykəltəraşlığın kompozisiyası da bu janrlara müvafiq olaraq inkişaf etmiş və özünəməxsus cəhətləri ilə biri digərindən fərqlənmişdir. Bu janrlar içərisində ən geniş yayılanı relyefdir. Qədim tarixə malik olan relyef janrı müstəvi üzərində icra olunmaqla əsasən monumental heykəltəraşlıqda tətbiq edilir və memarlıq ilə bağlı olur. Bu janrın özü qorelyef, barelyef və kontur relyefdən ibarət stillərdə icra olunsa da kompozisiya baxımından bu üslublar ümumi qaydalar əsasında həyata keçirilir. Relyefin əsasən əvvəlcədən müəyyən olunmuş müstəvi üzərində yerləşməsini nəzərə alsaq onun kompozisiya həllindəki üç həcmli heykəldən fərqli prinsiplərini asanlıqla təsəvvür edə bilərik (1, 34). Qeyd etdiyimiz kimi relyef janrında kompozisiya həlli ilk öncə onun yerləşəcəyi müstəvinin formasına müvafiq olaraq müəyyənləşdirilir. Bu müstəvinin forması üçbucaq, düzbucaq, çevrə, oval və sərbəst formada ola bilər ki, bu formaların hər biri mövzunun seçilməsinə, fiqurların yerləşdirilməsinə öz təsirini göstərə bilər. Təbii ki, relyef janrında da insan obrazının təsviri ön planda durur. Relyefdə təsvir obyektlərinin genişliyi, perspektivdən istifadə imkanları, kompozisiyanın bir neçə planda qurulması üçün şərait yaradır.

## Əsas təhlil

Relyef heykəl, iki və üç ölçülü sənət növlərinin xüsusiyyətlərinin bir çoxunu özündə daşıyan səth (fon-divar) üzərində yaradılan bir janrdır. Formalarına görə relyef bir neçə növə bölünür. Bildiyimiz kimi, fiqurun fəzada yerləşdirilməsi, onun hərəkətinin, duruşunun (poza), jestinin verilməsi, formanın relyefliyini gücləndirən işıq-kölgə modelləşməsi, heykəlin fakturası və ya materialın emalı, tutumun memarlıq əlaqəsi, onun kütlə, çəki münasibəti, proporsiya seçimi, siluetin xarakteri heykəltəraşlığın əsas ifadəsidir. Həcmli heykəltəraşlıq forması real fəzada harmoniya, ritm və tarazlıq qanunlarına əsasən ətraf memarlıq və təbii aləmlə qarşılıqlı əlaqə və anatomik xüsusiyyətli bu və ya digər modellər üzərində qurulur. Bu mənada relyef heykəllər də əsas xüsusiyyətinə görə ümumilik daşıyır.

İlkin relyeflər mağara divarlarında daş lövhələr üzərində edilirdi. Fiqurların təsvirində forma sxemliyi hökm sürürdü. Daha sonrakı inkişaf mərhələlərində heykəltəraşlığın prinsipləri xüsusi qaydalarla həyata keçirilməyə başlandı. Qeyd edilənlərə misal olaraq skiflərin qızıl relyeflərini, Nok mədəniyyətinin terrakot başlarını, Okean sahili xalqlarının ağacdan oyma heykəllərini

göstərmək mümkündür. Məsələn, e.ə. VII əsrə aid qızıl kəmər başlığını ilkin relyef nümunəsi kimi dəyərləndirmək mümkündür (2, 45). Burada qızıl materialın parlaqlığı süjetli təsvirin xüsusilə zəngin görüntüsünü meydana çıxarmışdır Xüsusi sənətkarlıqla həyata keçirilmiş qabartma bəzəkli çərçivənin daxilində hərəkət edən heyvan təsvirləri yerləşdirilmişdir.

Quldarlıq cəmiyyəti incəsənətinin heykəltəraşlıq ustaları özlərinə məxsus spesifik xüsusiyyətlərə malik fərqli yaradıcılıq stilləri ilə diqqəti cəlb edirlər. Ritual və ecazkar mənası olan qədim qərb dövlətləri heykəltəraşlığı ciddi iyerarxiya allah və şahların hökmünü əbədiləşdirməyə xidmət edirdi. Bu da üslubuna görə ciddi-lakonik nəhəng əsərlərində özünü təsdiq edirdi. Qədim Misir heykəllərində özünəməxsus şərti insan fiqurları ilə fərqlənən, həcm baxımından cəmlənən-kanonun, sfinksin, fironların möhtəşəm heykəlləri, əyanların portretləri özlərində material haqda ilk anlayışları qoruyub saxlamışdılar. Bənzər yollarla inkişaf edən digər qədim qərb istibdadçı heykəltəraşlığı (Şumer, Akkad, Vaviloniya, Assuriya), özünəməxsus cizgilərlə, rəng parlaqlığı (Şumer), relyefə çoxsaylı detalların yerləşdirilməsi, o cümlədən peyzaj elementlərinin (Assuriya) gətirilməsi ilə maraq oyadır.

Relyef kompozisiya üzərində çalışarkən heykəltəraşın qarşısında duran birinci vəzifə müstəvinin formasından asılı olaraq kompozisiyanı əhatə edəcək fiqurların sayını müəyyənləşdirmək, daha sonra isə onları müstəvi üzərində rəsmlə təsvir edərək yerləşdirməkdir. Təsvir ediləcək fiqurları doğru yerləşdirməklə həm müstəvi, həm də kompozisiyada tarazlığı təmin edilir (3). Üç həcmli heykəldən fərqli olaraq relyef kompozisiyalarda tarazlıq xətti müstəvinin formasından asılı olaraq müəyyənləşir və adətən müstəvinin mərkəz xəttinin üzərində yerləşir. Perspektivin imkanlarından istifadə etməklə kompozisiyanı müstəvi üzərində bir neçə planda qura bilərik. Tarazlıq xətti isə bu planlar nəzərə alınmaqla fiqurların sayı, onların düzülüşü və bütövlükdə kompozisiya quruluşu vasitəsi ilə müəyyənləşdirilərək tapılmalıdır. Kompozisiyanın icrası zamanı müstəvinin forması da həlledici rol oynayır. Belə ki, yuxarıda qeyd etdiyimiz müstəvilərin hər birinin forması kompozisiya quruluşuna, fiqur və digər köməkçi detalların düzülüşünə öz təsirini göstərir.

Relyef heykəltəraşlıq - müstəvidən asılı olaraq inkişaf edən, bu müstəvidən aşağıda və ya yuxarıda, rəngkarlıq və sərbəst heykəl arasındakı dərinlik sahəsində, yəni iki ölçülü (müstəvi) və üç ölçülü (həcm) müstəvidən asılı olaraq inkişaf edən qabartılmış, digər heykəltəraşlıq növləri qədər çox yayılmayan heykəltəraşlıq janrıdır. Relyef sözünün kökü latınca "relevare", yəni yüksəltmək mənasını daşıyır. Üçölçülü heykəltəraşlığa xas keyfiyyətlərlə yanaşı, perspektiv kimi iki ölçülü təsvir elementlərindən də istifadə edilir. Memarlıq bəzəyi kimi daha çox bina və divar səthlərində görünür (4, 16). O, həmçinin abidələr, postamentlər, sarkofaqlar və qəbir daşları kimi irihəcmli sənət nümunələrində meydana çıxır.

Heykəltəraşlıq termini tarix boyu müxtəlif mənalara malik olmuşdur. Bu söz oymaq, kəsmək və ya qırmaq mənasını verən latınca “sculpere” kökündən gəlir. Qədim Yunanıstanda bu termin həm də relyef (dayaz dərinlik) və ətrafında gəzilə bilən heykəllərin yaradılmasında istifadə olunan yumşaq materialın modelləşdirilməsi metodunu əhatə edir. Bunun “relyef heykəl” adlandırılmasının səbəbi, heykəl əsərlərinin yaradılması zamanı meydana çıxan oxşar bədii və texniki həllərdən istifadə edilməsidir. Oyulan, qəlibdən çıxarılan, çəkiclə formalaşdırılmış və birləşdirilmiş hər cür materiallar relyef heykəltəraşlıq üçün səth sahəsi yarada bilər. İri miqyaslı memarlıq relyefləri yumşaq materiallarla formalaşdırılır, sonra tunc, terrakota və ya digər dayanıqlı, sərt materiallara köçürülür, binanın səthinə quraşdırılır və ya nöqtə aləti ilə daşa və ya taxtaya köçürülür. Arxadan qazma və çəkiclə relyef yaratmaq üsulu kubok və ya zireh kimi materiallarla həyata keçirilə bilər. Medalyonlar və sikkələr “intaglio” adlanan texnika ilə yaradılır.

Həm qərb, həm də şərq mədəniyyətlərində relyef heykəllər paleolit dövrünə qədər uzanan qədim tarixə malikdir. Relyef heykəllər içərisində mücərrəd və fiqurativ kompozisiyalı nümunələr mövcuddur. Fiqurlu heykəllərin əksəriyyəti Yunan, Roma və Qotika memarlığı və İntibah dövrü ilə birlikdə Avropa heykəltəraşlığı ilə əlaqələndirilir. Qədim Yunan, Kelt, Meksika, Vikinq və İslam heykəltəraşlığında mücərrəd nümunələr görmək mümkündür. İncəsənət tarixinin demək olar ki, hər dövründə rast gəlinən və çox böyük yer tutan relyef heykəltəraşlıq mövzusunu həsr edilmiş dərs vəsaitində əsas formalaşmağa aşladığı dövrdən başlayaraq önə çıxan xüsusiyyətlər haqqında

informasiyalar yer alır (5). Vəsaitdə Avropa heykəltəraşlığı ilə əlaqələndirə biləcəyimiz obrazlı relyef heykəltəraşlığın bir sənət növü kimi əsas xüsusiyyətləri, növləri və heykəltəraşlıq baxımından XX əsrə qədərki inkişaf xüsusiyyətləri əlaqəli nümunələr vasitəsilə araşdırılır.

Relyef heykəltəraşlığın ən qədim sənət növlərindən biridir və bu günə qədər fasiləsiz rol oynamışdır. İstifadə olunan daimi materiallar sayəsində bu sənət növü tarixi hadisələrin və dinlərin əyani qeydinin yaradılmasında, keçmişin bir çox böyük sivilizasiyalarının arxivinin yaradılmasında fəaliyyət göstərmişdir. Misirdə daş bina divarlarında iti xətlərlə yer müstəvisinə nüfuz edən alçaq relyef nümunələri, Qədim Yunanıstanda, Orta əsr Avropasında və Qotikada kilsə divarlarını bəzəmək üçün istifadə edilən hündür relyef nümunələri və burada zərif, alçaq və güclü heykəltəraşlıq effekti yaradan hündür relyeflər renessans relyef və onların heyrətamiz kompozisiyalarını təqdim edən çoxsaylı nümunələr var. Barok heykəltəraşları bu cür təcrübələrini çox vaxt geniş miqyasda davam etdirirdilər (6). Məcburi şəkildə yerə bağlanmasına baxmayaraq, bu sənət növünün obrazlı nümunələri heykəltəraşa forma inkişaf etdirməyə və həcmlə təcrübəsini artırmağa imkan verir. Bəzən illüziya məkanı yaradan relyef heykəltəraşlıq müstəvisində baş verən bu prosesi, nümunələri araşdıraraq və tətbiq etməklə formalaşdırma, səth modelləşdirmə, formanın vurğulanması, işıq-kölgə effektlərinin araşdırıla biləcəyi məkan yaratmağa, müstəqil heykəltəraşlığın reallığını müqayisəli şəkildə daha aydın qavramağa kömək edəcək. XX əsrin dəyişən ifadə formalarında bu əsas sənət növünü başa düşmək, obrazlı relyef heykəltəraşlıq nümunələrinin araşdırılması ənənəvi heykəltəraşlıq və sənət təhsili baxımından dərinliyin illüziyası və real ölçüsü haqqında mühüm plastik təcrübə təqdim edir.

**Nəticə**

**Nəticədə** qeyd etmək olar ki, tarixi inkişafın bütün mərhələlərində incəsənət insan həyatını, onun inkişafını hər zaman yaxından izləmişdir. Dünya relyef heykəltəraşlıq nümunələrinə fikir versək bu qənaətə gələrik ki, qədim İnklərin incəsənətindən başlayaraq Okeaniya, Qədim Misir, Yunan, Roma, qotika, İntibah dövrü və sonrakı dövrlər daxil olmaqla bütün dövrlərdə incəsənət hər zaman mövcud olduğu cəmiyyətin xarakterindən asılı olaraq inkişaf yolu seçmişdir. Belə ki, incəsənət birbaşa və yaxud dolayısı ilə mövcud olduğu cəmiyyətin inkişafından qismən asılı olmuş, qismən də cəmiyyətin inkişafına təkan vermişdir. İnkişafın bütün mərhələlərində nəinki incəsənətin xarakteri, həmçinin onun cəmiyyətdəki və insan həyatındakı rolu dəyişmişdir. Bununla belə incəsənət bugünkü günədək həqiqi həyatı tərənnüm edən bir faktor kimi fəaliyyətini davam etdirməkdədir.

## ƏDƏBİYYAT


1. Müslümov, R. Kompozisiya anlayışı. Bakı: 2007.
2. Косарева, А. Искусство медали. 1977-1982. Москва: Просвещение, 1982, 127 с.
3. Балтун, П.К. Н.В.Томский. Изобразительное искусство. Москва: Скульптура, 1974
4. Ермонская, В.В. М.Г.Манизер. Москва: Издательство Академии Художеств СССР, 1961
5. Молодые советские художники. Живопись, скульптура, графика. Альбом. Москва: Изобразительное искусство, 1982.
6. Arzu Çakır Atıl. Rölyef heykel // Sanat, tasarım ve bilim dergisi, 2015.


**** Azərbaycan Rəssamlıq Akademiyasının***
***"Heykəltəraşlıq" kafedrasının dosenti***
***E-mail: nurlanuray1477@mail.ru***

**Nurlan Mammadov**

## THE STAGES OF DEVELOPMENT OF RELIEF SCULPTURE

Relief sculpture is an art form that has developed since ancient times and is carried out mainly on flat surfaces. Among the main characteristics of this genre there are various styles such as high relief, bas-relief and contour relief. The relief was closely associated with architecture, widely used in the decoration of buildings and other large objects. The history of relief sculpture began in the early days with simple and schematic images on cave walls and stone slabs. From time to time, drawings and pictures have become more complex and detailed. This art form occupied an important place in ancient cultures, especially in Egyptian, Greek and Roman art, and sometimes embodied power and religious themes. In the process of creating a relief it is important to create an illusion of volume and depth with the use of light-shadow games and perspective. This type of art is also reflected in large-scale works of art, such as monuments, sarcophagi and tombstones. Giving important information on history and culture the relief sculpture developed from time to time at different periods and gave rise to new styles. In the twentieth century this type of art was enriched with aesthetic and technical practices and also became an important subject in terms of architecture and general art. As a result, relief sculpture has retained its significance to nowadays reflecting the life, culture and development of human throughout history.

**Keywords:** *relief, plasticity, sculpture, art, image, embossing.*

**Нурлан Маммадов**

## ЭТАПЫ РАЗВИТИЯ РЕЛЬЕФНОЙ СКУЛЬПТУРЫ

Рельефная скульптура - это один из самых древних жанров искусства, который развивался на плоских поверхностях с использованием различных техник, таких как горельеф, барельеф и контурный рельеф. Этот жанр имеет тесную связь с архитектурой и часто применяется для украшения зданий, памятников и других крупных объектов. Рельефные произведения могут быть выполнены на различных типах поверхностей, которые влияют на композицию и расположение фигур. Наиболее ранние примеры рельефов можно найти на стенах пещер и каменных плитах, где изображения часто имели схематичный и упрощённый характер. В дальнейшем, с развитием цивилизаций, рельефные композиции становились более сложными, что можно увидеть на примере золотых рельефов скифов, терракотовых фигур культуры Нок и других ранних произведений искусства. Скульпторы, работавшие в древности, использовали рельеф для запечатления важных исторических и религиозных сцен, а также для выражения власти и величия. В Египте, например, рельеф использовался для изображения фараонов и богов, в Греции и Риме - для запечатления мифологических сцен и образов великих личностей. Важной особенностью рельефной скульптуры является использование светотеневых эффектов и перспективы для создания иллюзии объёма на плоской поверхности. Это позволяет создавать многоплановые композиции и усиливать восприятие произведения. Рельефная скульптура оказала значительное влияние на искусство разных эпох, включая Ренессанс и Барокко, где художники продолжали развивать её возможности и играть с масштабом и эффектами. В XX веке рельеф стал важной частью искусства, использующего иллюзии и пространственные эксперименты. Таким образом, рельефная скульптура остаётся важной частью художественного наследия, способствуя не только украшению общественных пространств,

но и отражению исторического, религиозного и культурного контекста различных цивилизаций.

**Ключевые слова:** *рельеф, пластика, памятник, искусство, образ, композиция*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 14.10.2025**
**Son daxilolma tarixi:12.11.2025**